# Lənkəranda Xocalı soyqırımının ildönümü anılıb

**Lənkəranda Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücumu nəticəsində qətlə yetirilən soyqırımı qurbanlarının xatirəsi anılıb.**

Anım mərasimi şəhərin mərkəzində, azərbaycanlıların soyqırımı qurbanlarının xatirə parkındakı "Ana heykəli" qarşısında keçirilib. Tədbirdə iştirak edən şəhər icra hakimiyyətinin (ŞİH) başçısı Taleh Qaraşov, yerli icra strukturlarının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, gənclər və ictimaiyyət nümayəndələri abidənin önünə gül dəstələri düzüblər, faciə qurbanlarının xatirəsini ehtiramla yad ediblər. Sonra Lənkəran Dövlət Dram Teatrı aktyorlarının ifasında "Xocalı soyqırımı" adlı kompozisiya nümayiş olunub.

Qeyd edək ki, gün ərzində soyqırımı qurbanlarının xatirəsinə ucaldılan abidə əhali tərəfindən ziyarət olunub, rayonun idarə, müəssisə və təşkilatlarında, Heydər Əliyev Mərkəzində anım tədbirləri, Lənkəran Dövlət Universitetində, orta ixtisas və ümumtəhsil məktəblərində bu qanlı faciəyə həsr olunmuş dərslər keçirilib, mədəniyyət müəssisələrində foto, rəsm və kitab sərgiləri təşkil edilib.

Azərbaycan.- 2024.- 27 fevral, № 44.- S.11.